**UOT 82-1.512.162.**

**İradə Gözəl Vəlibəyli**
*fil.f.d., AMEA*

# ŞƏRQ POEZİYASININ GÜNƏŞİ

*Dahilər dünyada əbədi yaşar,*
*İstər şair olsun, istər bəstəkar,*
*Bizim ölkəmizdə nə çoxdur onlar,*
*Xoşbəxtik ki, bizim Nizamimiz var!*

**Açar sözlər:** *mütəfəkkir, dil, ədəbiyyat, yaradıcı fəaliyyət, müstəqil, müstəqillik, müxtəlif, fəxr etmək.*

**Key words:** *thinker, language, literature, creative activity, irrespective, independence, different, to be proud of.*

**Ключевые слова:** *мыслитель, язык, литература, творческая деятельность, независимость, независимый, разные, гордиться.*

Böyük fəxr və qürur hissi ilə qeyd etməliyik ki, dünyanın dilbər güşələrindən biri olan doğma vətənimiz Azərbaycan Qafqazın incisi adlanır. Belə ki, coğrafi arealına, yeraltı və yerüstü sərvətlərinə görə eyni zamanda füsünkar təbiət gözəlliklərinə malik bir məkanda yaşayan xalqımız dünya elm və mədəniyyəti xəzinəsinə bir sıra görkəmli şəxsiyyətlər – sərkərdələr, alimlər, şairlər, bəstəkarlar və s. böyük düha sahibləri bəxş etmişdir. İnsan yer üzünün əşrəfi və bəzəyidir! Təbiət, cəmiyyət və insan! – demək olar ki, bu üç komponent üzvi surətdə bir-biri ilə bağlıdır və biri digərinin inkişafına imkan yaradır. Yəni, təbiət cəmiyyəti, cəmiyyət isə şəxsiyyətin mənəvi aləminin formalaşmasını, təkmilləşməsini və zənginləşməsini şərtləndirir.

Qeyd etməliyik ki, son illər respublikamız müstəqillik qazandıqdan sonra Azərbaycanda Prezident cənab İlham Əliyevin sərəncamı ilə bir sıra dünya əhəmiyyətli beynəlxalq tədbirlər və görüşlər mühüm əhəmiyyət kəsb edir.

2021-ci ilin Nizami Gəncəvi (880) ili olması qlobal səviyyədə böyük əhəmiyyətə malikdir.

Belə ki, Müzəffər Ali Baş Komandan, Qalib Sərkərdə, cənab İlham Əliyevin sərəncamı ilə 2021-ci ilin "Nizami ili" adı ilə adlandırılması xalqımız tərəfindən böyük təntənə ilə bayram edilməkdədir.

Bu mənada bəşər bədii fəlsəfi fikrinin nadir hadisəsi kimi, Nizami Gəncəvinin şəxsiyyət və yaradıcıllığı səkkiz əsrdən çoxdur ki, diqqət mərkəzində olmaqla, xalqımızın mənəviyyatını bütün dünyaya tanıtmaqdadır. Ə.Caminin dediyi kimi, "Nizaminin parlaq və tərifə layiq kamilliyinin izahata ehtiyacı yoxdur. Çünki, heç kimin onun qədər xoş və incə möcüzələr saçmağa qüdrəti ola bilməz. Bu, insan nəslinin imkanları xarıcındədir" [7].

Məlum olduğu kimi, bu böyük sənətkarın bütün həyatı və zəngin ədəbi bədii fəaliyyəti həmin dövrdə təkcə Azərbaycanın və Qafqazın ən iri şəhəri Gəncə ilə bağlı olsa da, dahi şair Nizami Yaxın və Orta Şərq aləmində də tanınmışdır. Məhz bu səbəbdəndir ki, Nizami özünə Gəncəvi təxəllüsü götürmüşdür. Dahi şair və mütəffəkir ömrü boyu burada yaşayıb, yaratmış və öz ölməz əsərləri ilə dünya poeziyasına bir-birindən dəyərli söz sənəti inciləri bəxş etmişdir.

Beləliklə, mütəffəkir şairin məşhur "Xəmsə"si ("Sirlər xəzinəsi", "Leyli və Məcnun", "Xosrov və Şirin", "Yeddi gözəl" və "İsgəndərnamə"), insanlığın – mənəvi sərvətlər axtarışının zirvəsində dayanaraq ona dünya şöhrəti gətirməklə, korifey bir sənətkar kimi, dünya ədəbiyyatının şah əsərləri sırasında layiqli yer tutmasına müvəffəq olmuşdur. Belə ki, bütövlükdə Nizami Gəncəvinin "Xəmsə" adı ilə məşhur olan bu ümümbəşəri mahiyyət daşıyan ölməz sənət əsəri, ecazkar poetik qüvvəyə malik olduğundan, dahi şair Şərq bədii təffəkkürünün elmi-fəlsəfi fikrini zənginləşdirmiş və onu görünməmiş yüksəkliklərə qaldırmışdır.

Qeyd etməliyik ki, Nizami yaradıcılığında qadın hüququ ümdə yer tutur və ona görə də dahi şair bədii əsərlərində bu problemi dinamik bir inkişafda tərənnüm etmışdır. "Leyli və Məcnun" – dedikdə qadın azadlığı göz önünə gəlir. Bir sevən qəlbə məhdudiyyət qoyan zamanın səbəbsiz və sübutsuz qadağaları qarşısında qalan qadın əşya kimi sevmədiyi şəxsə satılır. Məhz belə hadisələrə görə, gənc qızlarımız və qadınlarımız, bütün insanlar – oxucu, tamaşaçı və dinləyici olaraq, o dövrün haqsızlıq və mövhumatla dolu mürtəce qanun-qaydalarına qarşı çıxır və Leyli öz saf məhəbbətinin qurbanına çevrilir. Nəticədə, Leyli eşq oduna yanan bir qadın obrazı olaraq, həyatını bu yolda qurban verərkən bu səhnəyə acıyan hər kəs göz yaşlarına qərq olur. Beləliklə, əsərdəki hadisələr bugünkü müstəqil, azad nəslin öz keçmişi ilə barışmaz mövqe tutmasının təzahürüdür.

Qeyd etməliyik ki, Nizami Gəncəvi yaratdığı qadın obrazlarını zamanın tələbinə və o dövrdə hökm sürən qanunlara görə dinamik inkişafda götürmüşdür. Belə ki, Leyli vaxtılə yaşadığı dövrün mövcud qanunlarına görə hüquqsuz bir qadın kimi, oxuculara təqdim olunduğu halda, Şirin və Məhin Banu öz ağılları ilə yaşadıqları cəmiyyətdə böyük nüfuz sahibi kimi, oxucu-

lara təqdim olunurlar. Hətta, Bərdə hökmdarı Nüşabə "İsgəndərnamə" əsərində dünyanı fəth edən İsgəndərə öz ağlı və kamilliyi ilə qalib gəlir:

*Erkək tinətliyəm olsam da qadın,*
*Bəllidir hər işi mənə dünyanın,*
*Mən də bir aslanam, düşünsən bir az,*
*Aslanın erkəyi, dişisi olmaz!*

Beləliklə, dahi şairin yaratdığı qadın surətlərində baş qəhrəmanları olan Leyli, Şirin, Məhin Banu və Nüşabə kimi xanımlarımız zamanın bütün dövrlərində olduğu kimi, indi də öz aktuallığını saxlayaraq bu gün də qadınlarımıza örnək ola biləcək bir nümunədir. Göründüyü kimi, öz dövrünün mürtəce qanun-qaydaları ilə barışmayan mütəfəkkir şair haqsızlığa olan münasibətini poetik dildə yüz illər keçsə belə, oxuculara və tamaşaçılara çox yüksək emosionallıqla çatdırır.

Qeyd etməliyik ki, gözəlliklər qoynunda dünyaya gələn, boya-başa çatan Nizami Gəncəvi, təbiətdə olduğu kimi, gözəl cəmiyyət və bu cəmiyyəti quran, yaradan kamil insanlar və yüksək səviyyədə idarə edən, haqq-ədaləti qoruyan hökmdarlar – idealı ilə yaşamışdır. Ona görə də, dahi şairin istər lirikası, istərsə də "Xəmsə"si bütövlükdə ideal insanın daxili və xarici, fiziki və mənəvi, ictimai gözəlliyi, əzəməti haqqinda bir himndir! Dahi şair və mütəfəkkir Nizamiyə görə insanın zahiri də, düşüncəsi də, qəlbi də, hərəkətləri və xüsusiilə dili, nitqi, danışığı da gözəl olmalıdır:

*İnci tək sözlər seç az danış, az din*
*Qoy az sözlərinlə dünya bəzənsin!.*

Beləliklə, Nizami Gəncəvi şərq ədəbiyyatının günəşi oıaraq, ədəbi irsimizdə özünəməxsus xüsusiyyətləri ilə seçilir. Nizami Gəncəvi dahi şair olmaqla yanaşı bəşər cəmiyyətinə məlum olan əsas elmi bilikləri – fizika, fəlsəfə, tarix, ilahiyyat, astronomiya, kimya, riyaziyyat və s. dərindən mənimsəmişdir [1, s.4]. O, bu haqda "Yeddi gözəl" əsərində belə yazır:

*Dünyada nə qədər kitab var belə,*
*Çalışıb əlləşib gətirdim ələ.*

Nizami Gəncəvi elmin, elmi biliklərin insan cəmiiyyətində, insan həyatında aparıcı, hərəkətverici qüvvə olduğunu dərk etmiş, ona görə də elm adamlarına, yəni alimlərə, müdrik insanlara yüksək qiymət vermişdir [1, s.5].

*...Alimdir gözümdə ən əziz insan,*
*Qüvvət elmdədir, başqa cür heç kəs,*
*Heç kəsə üstünlük eyləyə bilməz!*

Böyük fəxr və qürur hissi ilə qeyd etməliyik ki, ensiklopedik biliyə malik dahi şair və mütəfəkkir Nizami Gəncəvinin lirikası və "Xəmsə"si çağdaş dövrümüzdə şərqdən-qərbə doğru bütün qitələri dolaşmaqdadır və onun əsərləri dünya dillərinə tərcümə olunaraq irqindən, milliyətindən asılı olmayaraq, bütün əsrlərə nur çiləyir və şəfəq saçmaqdadır [5].

*Dünyaya fateh olmaz zülmkarlıq, rəzalət.*
*Yer üzünün fatehi ədalətdir, ədalət!*

*Elmlə, ədəblə tapılar şərəf,*
*Mirvari deyilsə, nə lazım sədəf.*

*Mərd olmaq gərəkdir həyatda hər an,*
*Mərdliklərlə çatar arzuya insan.*

*Fil keçsin üstündən tapdalayaraq,*
*Xəsis adamlara əl açma ancaq.*

*Səadət kamalla yetişər başa,*
*Xalqa xidmət elə ədəblə yaşa.*

*Eşqdir mehrabı uca göylərin,*
*Eşqsiz, ey dünya, nədir dəyərin?!*

*Gecəni, gündüzü çox vermə bada,*
*Yaxşı ad uğrunda çalış dünyada.*

*Çalış öz xalqının işinə yara,*
*Geysin əməlinlə dünya zər, xara!*

*Bir elm öyrənmək istədikdə sən,*
*Çalış ki, hər şeyi kamil biləsən.*

*Kamil bir palançı olsa da, insan,*
*Yaxşıdır yarımçıq papaqçılıqdan.*

*Bacarsan, hamının yükünü sən çək,*
*İnsana ən böyük şərəfdir əmək.*

*Yaxşılığı əzəldən adət etsən özünə,*
*O yaxşılıq hər yanda qapı açar üzünə!*

*Sadiq dostun sağaldar şəfasıyla yaranı,*
*Cahil dostun sızladar cəfasıyla yaranı,*
*Çalış elə dost ara, səni darda qoymasın,*
*Çəkib tordan qurtarsın, səni torda qoymasın.*

Nümunələrdən göründüyü kimi, dahi şair Nizami bütün əsərlərində bəşəriyyətə, insanlığa ülvi məhəbbət, əməyə, zəhmətə hörmət, ədalət, xeyirxahlıq, sədaqət və s. kimi fəzilət hissi və duyğuları aşılayır, lakin haqsızlıqlara, ədalətsizliyə, barışmaz kin və nifrət hisslərini əks etdirir. Vətənimizin və xalqımızın yetirdiyi bu böyük söz ustadı sözün rəngarəng, üslubi, ecazkar, emosional, semantik gücündən istifadə edərək, bəşəriyyatın bədii-fəlsəfi fikir salnaməsində yeni parlaq səhifə açmış ölməz əsərləri ilə bu gün də insanların mənəvi, əxlaqi kamilləşməsinə misilsiz xidmət göstərir. Bu əsərlərin hər biri tarixin hər bir zamanında, hər bir məqamında bəşər övladına gərək olan ümdə proseslərin yardımçısı olan haqq-ədalət aynasıdır.

“Qeyd etməliyik ki, Nizami xalqımızın milli təfəkkürünün inkişafında onun mənəvi aləminin təkmilləşməsində müstəsna rol oynamış, bu gün də öz təsirini göstərən və gələcək əsrlərə də nur çiləyən dahi şair və mütəfəkkirimizdir. Dahilərin dediyi kimi, Nizami doğma Azərbaycan şairidir və Azərbaycan qanuni olaraq onunla fəxr edə bilər... ancaq o, həm də dünya ədəbiyyatının iftixarı və bəzəyidir! [2].

Beləliklə, Şərq ictimai-bədii fikrində yeni bir sahifə açmış dahi şair hətta müasir dövrdə belə öz həyati əhəmiyyətini qoruyub saxlayan poemaları lirik şeirləri ilə inci dəryasına bənzər bir irs qoyub getmişdir. Nizami Gəncəvi insan və cəmiyyətlə bağlı problemləri – haqq-ədalət, düzlük-doğruluq, həmçinin qadınların hüquqi azadlığını yaratdığı qadın obrazlarında dinamik bir inkişafda təsvir etmişdir.

Beləliklə, Nizaminin bütün əsərləri irqindən, dilindən, milli mənsubiyyətindən asılı olmayaraq bəşəriyyəti, nəsilləri yüksək ideallar və amallar uğrunda mübarizəyə, qəhrəmanlığa sövq edir.

Beləliklə, bəşəriyyətin bədii fikir tarixində yeni səhifə açmış, dünya ədəbiyyatının iftixarı, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin əsərləri Vətənimizin, həmçinin dünya ədəbiyyatı xəzinəsinin qızıl fondunda ən görkəmli yer tutur. Azərbaycan xalqının bu böyük oğlunun adı və sözü indi bütün dillərdə, planetin bütün güşələrində səslənir. Məhz, bu səbəbdəndir ki, Nizami Gəncəvi yalnız Azərbaycan üçün deyil, bütün dünya

ədəbiyyat və mədəniyyat sənətkarları üçün tükənməz ilham mənbəyi olmuş, misilsiz yaradıcılıq bəhrəsi kimi, onları zinətdləndirmiş və cahanşümul şöhrət qazanmışdır.

Beləliklə, dünya dahilərinin və sənətkarlarının qiymətləndirdiyi, oxucular tərəfindən sevilə-sevilə oxunan Azərbaycan xalqının ölməz şairinin şöhrəti və bədii yaradıcılığı, dünya poeziyasının ədəbi simalarından Şekspir, Bayron, Şiller, Hüqo, Dante, Nəvai, Cami, Puşkin və başqa dahilərin əsərləri kimi, tərcümə ustalarının da nəzər diqqətini cəlb etməkdədir.

**İstifadə olunmuş ədəbiyyat**


1. Abdullayev H.B., Vəliyev L.M. Nizami Gəncəvinin elm dünyası, Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1991
2. A.Krımski, Nizami və onun poeziya sələfləri. Bakı, Elm, 1981. А.Крымский. Низами и его современники. Баку, Элм, 1981
3. Berthels E.E. The Great Azerbaijani Poet, Nizami. Life, works, time. London, Gilgamesh Publishing, 2017.
4. Rustamova Azada. Nizami Ganjavi Khamsa [Text]: Miniatures, J.Hasanzade; trans. N.McGowan; Heydar Aliyev Foundation [Azerbaijan]: Chashioglu, 2013, 230, [2] p.:photo; 30 sm.
5. Nizami Gəncəvi. Hikmət və nəsihətlər (mətn Azərbaycan, rus, ingiliz və fars dillərində), Bakı, Yazıçı, 1991, 551 s.
6. Rustamova Azada. Nizami Ganjavi Khamsa. The outstanding men of Azerbaijan, A.Rustamova; trans. G.Bayramov; Baku Yazıchy, 1983, 47p.
7. Rustamova Azada Nizami Gəncəvi.Həyatı və sənəti (monoqrafiya), Bakı, 1979, 207 s.


**İrada Gozal Velibeyli**

**Summary**

**The sun of eastern poetry**

This article is devoted to Nizami Ganjavi, the genius poet and thinker of Azerbaijan, whose literary works have been playing great role in formation and development of the outlook of younger generation nowadays too. His masterpiece “Khamsa” which brought its author worldfame glory all over the world is the bridge of cultural relations among peoples and countries. This is the reason that Nizami Ganjavi occupies one of the best places among the outstanding poets and writers as Shakespeare, Bayron, Shiller, Huqo, Dante, Navai, Jami, Pushkin and so on. Thus, the scientists, poets and writes from different countries irrespective of their nationalities use his literary heritage in their investigations and scientific reseach works. We are proud of Nizami Ganjavi, the qreat son, the genius poet and thinker of Azerbaijan.

**Ирада Гюозал Веливейли**

**Резюм е**
**Солнце восточной поэзии**

Статья посвящена Низами Гянджеви, гениальному поэту и мыслителю Азербайджана, литературные произведения которого сыграли большую роль в формировании и развитии мировоззрения подрастающего поколения. Его шедевр «Хамса», прославивший своего автора во всем мире, является мостом культурных связей между народами и странами. По этой причине Низами Гянджеви занимает одно из лучших мест среди выдающихся поэтов и писателей, таких как Шекспир, Байро, Шиллер, Гюго, Данте, Наваи, Джами, Пушкин и так далее. Таким образом, ученые, поэты и писатели из разных стран вне зависимости от национальности используют его литературное наследие в своих исследованиях и научных работах. Мы гордимся Низами Гянджеви, великим сыном, нашим гениальным поэтом и мыслителем Азербайджана.

*Rəyçilər: fil.f.d. G. Axundova,*
*fil.f.d. L.Əliyeva*
*Redaksiyaya daxil olma: 11.08.2021*
*Təkrar işlənməyə göndərilmə: 27.08.2021*
*Çapa qəbul olunma: 07.09.2021*